Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az
**Layihənin istiqaməti:**
**"İctimai və dövlət maraqlarının müdafiəsi"**

# Andraniki tayqulağa çevirən Azərbaycan oğlu

## Laçınlı Sultan bəyin erməni quldurlarına qarşı mübarizədəki xidmətləri danılmazdır

**Laçın rayonunun Kürdhacı kəndində yaşayan Paşa bəy səxavəti, igidliyi, vətənpərvərliyi ilə ad çıxarmışdı. Çoxlu malı-mülkü olan bəy həm də elmə, təhsilə meyilli bir ziyalı idi. Hər üç oğluna gimnaziya, universitet təhsili almaq üçün şərait yaradan Paşa bəy həm də onları vətənə, torpağa bağlı bir igid kimi böyütmüşdü.**

Azərbaycanda Xalq Cümhuriyyətinin yaranmasında onun oğullarının böyük rolu olub. Hətta kiçik oğlu Xosrov bəy Azərbaycan Xalq Cümhuriyyəti dövründə ilk müdafiə naziri olmuş və 1919-cu ilin yanvarından 1920-ci ilin aprel işğalına kimi Qarabağın general-qubernatoru vəzifəsində işləmişdir.

Xosrovun böyük qardaşı Sultan bəy olub. 1871-ci ildə anadan olan Sultan bəy ilk təhsilini evdə xüsusi müəllimlərdən aldıqdan sonra Paşa bəy onu Gəncəyə gimnaziyaya qoyur. Gimnaziyada təhsilini başa vuran Sultan bəy daha mükəmməl hərbi təhsilə yiyələnmək arzusunda idi. Odur ki, atasının xeyir-duası ilə üz tutur Sankt-Peterburqa. Burada bir neçə ay yaşadıqdan sonra Sankt-Peterburq Hərbi Akademiyasına daxil olur.

Sultan bəy haqqında olan mənbələrdən belə bəlli olur ki, o, hərbi təhsilini başa vura bilmir. Bu haqda müxtəlif fikirlər söylənilir. Bəzi mənbələrdə göstərilir ki, guya təhsilini atasının xahişi ilə yarımçıq qoyub vətənə qayıdır. Bəzilərində isə qeyd edilir ki, o zaman rusların qafqazlılara, müsəlmanlara qarşı apardıqları şovinist münasibətə dözə bilmədiyi üçün müəllimləri ilə arasında münaqişə yaranır və nəticədə Sultan bəy Akademiyadan xaric edilir.

Əslində ikinci versiyanın doğruluğu diqqəti cəlb edir. Çünki Paşa bəy tək Sultanı yox, ondan bir neçə il sonra Xosrovu da Odessa Universitetinin tibb fakültəsində oxutmuşdur. O, övladlarını yüksək təhsilli, yenilikçi kimi görmək arzusunda idi.

Sultan bəy Laçına qayıdandan sonra bir müddət maldarlıq, meşəçilik işləri ilə məşğul olur. Belə ki, Fransadan avadanlıqlar gətizdirən Sultan bəy ilk olaraq Laçında yağ-pendir zavodu açır, taxta istehsal edən sex yaradır.

Uzun illərin pedaqoqu, əslən laçınlı Cəfərqulu Həsənovun xatirələrində Sultan bəyin demokratik bir insan olduğu da qeyd edilib. Cəfərqulu müəllimin xatirələrinə görə, "Laçın rayonu Qarakeşli kəndində Sultan bəyin qardaşı



İsgəndər bəylə yerli orqanlar arasında anlaşılmazlıq yaranır. Pristav İsgəndər bəyi nəzarətə saldırır. Sultan bəy tək-tənha, heç kimə xəbər vermədən atı minib Qarakeşli kəndinə gəlir. Pristav onu görəndə həyəcanlanır və səhv etdiyini düşünür. Hər kəs Sultan bəyin qardaşını azad edəcəyini gözləyərkən, Sultan bəy tamamilə başqa addım atır. O, pristava deyir: "Qanun hamı üçün qanundur. Əgər qardaşım səhv edibsə, cəzasını çəkməlidir. Mən bura ona görə gəlmişəm ki, el-obam deməsin Sultan bəy qardaşının yanına gəlmədi". Bu sözləri eşidən pristav Sultan bəyin qardaşını azad edir".

1905-ci ildə Qarabağda erməni-müsəlman münaqişəsi dözülməz həddə çatır. Bu zaman Paşa bəy könüllü dəstələr yaradaraq ermənilərlə vuruşmağa başlayır. Belə dəstələrin birinə oğlu Sultan bəy rəhbərlik edir. Günü-gündən bu könüllü dəstələrin sayı artır. Onlar Şuşa, Zəngəzur, Cəbrayıl və Cavanşir qəzalarında düşmənə layiq olduğu cəzanı verirlər.

1918-ci ilin əvvəllərində ermənilər bu dəfə təkcə Qarabağda deyil, bütün Azərbaycanda soyqırımına başlayırlar. Bu soyqırımının belə geniş ərazidə başlamasına səbəb erməni quldurları Andranik Ozanyan və Stepan Şaumyan olur. Andranik Qarabağda, Şaumyan isə Bakıda fəaliyyətə başlayır. O Andranik ki, rus və fransız hökumətləri 1914-cü ildə türk-müsəlman əhalisinə qarşı hərbi əməliyyatlarda amansız iştirakına görə onu çoxsaylı orden və medallarla təltif etmiş, 1918-ci ildə isə general-mayor rütbəsi ilə qiymətləndirmişdi.

Lakin 1918-ci ildə igid oğlumuz Sultan bəy Andranikə ömürlük utanc gətirən bir "mükafat" verir. O "mükafat" Andranikə "TAYQULAQ" adını bəxş edir.

Tədqiqatlara görə, 1918-ci ildə erməni quldur dəstəsinin rəhbəri Andranik Dağlıq Qarabağa keçmək üçün Qarabağ general-qubernatoru Xosrov bəy Sultanova icazə məktubu göndərir. Xosrov bəy qardaşı Sultan bəylə məsləhətləşir. Sultan bəy qardaşından icazə verməsini xahiş edir. İcazə alan Andranik tez bir zamanda 30 minlik ordu ilə müsəlmanlara qarşı hücuma kecir. Hərbi təhsilə yiyələnmiş Sultan bəyin uzaqgörənliyi nəticəsində Andranikin ordusu Zabux dərəsində mühasirəyə düşür və düşmən darmadağın edilir. Deyilənlərə görə, cəmi üç nəfər erməni qacıb canını qurtara bilir, Andranik isə ələ keçir. Sultan bəyin əl-ayağına düşərək aman diləyir. Sultan bəy gülərək: "Bu qədərmi qorxursan, qorxma səni öldürməyəcəm, sənin qulağını kəsəcəm ki, qulağında qalsın, bir də başqasının malına-mülkünə göz dikməyəsən"- deyərək gədənin qulağını kəsir və əlinə verir.



Qərənfil Dünyamin qızı
Əməkdar jurnalist

Amma çox təəssüflər ki, 1920-ci il aprel işğalından sonra Sultan, Xosrov, İsgəndər kimi igid oğullarımızı vətəndən elə öz bolşevik-gədələrimiz didərgin salır. Paşa bəyin hər üç oğlu İrana mühacirət etməyə məcbur olur. İranda ermənilər İsgəndəri öldürür. Sultan və Xosrov Türkiyəyə üz tutur. Hər iki igid Türkiyədə Atatürk tərəfindən hörmətlə qarşılanır və mülklə təmin edilir. Ömürlərini də elə Türkiyədə başa vururlar.

Sonda bir faktı demək istərdim. Bəzi mənbələrdə yazılır ki, Andranikin qulağını Sultan bəy yox, bir türk əsgəri kəsib. Unutmayaq ki, qəhrəmanın nə bəyi, nə əsgəri olur. Qəhrəman qəhrəmandır. Bir də Sultan bəy də elə türk oğlu deyildimi?! Dilimiz, dinimiz, soyumuz, kökümüz bir millət deyilikmi?!

Məqaləni hazırlamazdan əvvəl bir neçə mənbəyə baxdım. Həmişəki kimi yenə də Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası igid bəyə çox xəsisliklə yer ayırıb, Sultan bəy haqqında cəmi 4-5 cümlə ilə kifayətlənib. Onun erməni-müsəlman savaşındakı igidliklərindən isə yazılmayıb.